**UOT 159.9:316.37**

***Xalidə Oqtay qızı Xəlilova***
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun*
*kiçik elmi işçisi*
*https://orcid.org/0000-0002-3174-0621*

# AZADLIQDAN MƏHRUMETMƏ CƏZASINA MƏHKUM OLUNMUŞ ŞƏXSLƏRİN RESOSİALİZASİYASI VƏ SOSİAL ADAPTASİYASI

***Халида Огтай гызы Халилова***
*младший научный сотрудник*
*Института Философии и Социологии НАНА*

# РЕСОЦИАЛИЗАЦИЯ И СОЦИАЛЬНАЯ АДАПТАЦИЯ ЛИЦ, ПРИГОВОРЕННЫХ К ЛИШЕНИЮ СВОБОДЫ

***Khalida Ogtay Khalilova***
*junior researcher*
*Institute of Philosophy and Sociology of National Academy of Sciences of Azerbaijan*

# RESOCIALIZATION AND SOCIAL ADAPTATION OF PERSONS SENTENCED TO DEPRISONING OF FREEDOM

**Xülasə.** Azadlıqdan məhrum edilmiş məhkumların istər nəzəri, istərsə də tətbiqi aspektlərdə resosializasiya və sosial adaptasiyası problemləri həll olunmamış olaraq qalır. Bu problemlər ciddi dərketmə tələb edir. Məqalədə müəllif mövqeyi nəzərə alınaraq, azadlıqdan məhrum edilmiş şəxslərin resosializasiyası və sosial adaptasiyası ilə bağlı qanunvericilik tənzimlənməsinin və hüquq-mühafizə təcrübəsinin problemləri təhlil edir. Qeyd olunur ki, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslərlə maarifləndirmə işinin forma və metodlarını təkmilləşdirmək, o cümlədən idmanla, bədii özfəaliyyətlə məşğul olmaq, ümumi və peşəkar təhsil almaq mühüm əhəmiyyət kəsb edir. Məhkumlara pulsuz hüquqi yardım göstərilməsilə yanaşı, onların hüquqi mədəniyyətini yüksəltmək lazımdır.

***Açar sözlər:*** *cəzaçəkmə müəssisələri, məhkumların resosializasiyası, sosial adaptasiya, məhkumun şəxsiyyəti, sosiallaşma, sosial-psixoloji xüsusiyyətlər*

**Резюме.** Проблемы ресоциализации и социальной адаптации осужденных как в теории, так и на практике остаются нерешенными. Эти проблемы требуют серьезного осмысления. С учетом авторской позиции в статье анализируются проблемы законодательного регулирования и правоприменительной практики, связанные с социализацией и социальной адаптацией лиц, лишенных свободы. Отмечено, что важно совершенствовать формы и методы воспитательной работы с лицами, осужденными к лишению свободы, а также заниматься спортом, самодеятельностью, общим и профессиональным образованием. Помимо оказания бесплатной юридической помощи осужденным, необходимо повышать их правовую культуру.

***Ключевые слова:*** *исправительные учреждения, ресоциализация заключенных, социальная адаптация, личность осужденного, социализация, социология-психологические особенности*

**Summary.** The problems of resocialization and social adaptation of convicts, both in theory and in practice, remain unresolved. These issues require serious thought. Considering the author's position, the article analyzes the problems of legislative regulation and law enforcement practice related to the socialization and social adaptation of persons deprived of their liberty. It was noted that it is important to improve the forms and methods of educational work with persons sentenced to deprivation of liberty, as well

as to go in for sports, amateur performances, general and vocational education. In addition to providing free legal assistance to convicts, it is necessary to improve their legal culture.

***Keywords:*** *prisons, resocialization of prisoners, social adaptation, personality of a convicted person, socialization, socio-psychological features*

## Giriş

Azərbaycanda əvvəllər məhkum olunmuş şəxslərin təkrar cinayət törətmə hallarında artım müşahidə olunur. Bu zaman ortaya bir sıra suallar çıxır: Görəsən, məhkumluq həyatı yaşayan şəxslərin təkrar cinayət törətməsinə səbəb nədir? Vaxtından əvvəl azadlığa buraxılan məhkumların seçimi hansı formada aparılır? Məhkum azadlığa buraxılmazdan əvvəl onların psixoloji vəziyyəti və yeni həyata təkrar sosiallaşması üçün hansı işlər görülür?

Ümumiyyətlə, məhkum azadlığa buraxıldıqdan sonra onun həyatı əvvəllər azadlıqda olan həyatdan xeyli fərqlənir. Ailə həyatında, dostlar əhatəsində, yaşayış yerində bir sıra dəyişikliklər, işlə təmin olunma problemləri, sosial qınaq, təcrid olma və s. bu kimi hallarla rastlaşır. Bu kimi halların olması və bunlarla mübarizə edə bilməmək, eləcə də sosial dəstəyin olmaması insanı təkrar cinayətə təhrik edir. Yəni, cəzaçəkmədən azad olan şəxslər cəmiyyətdə özünü doğrulda bilmədikdə, təkrar cinayəti törədərək, özləri üçün müəyyən mənada sığınacaq yeri olan həbsxanalara qayıdırlar. Məhkumların readaptasiyası isə əslində həbsxananın özündə başlamalıdır ki, burada məşğuliyyət və vaxtın dəyərli keçməsi əsas şərtlərdən biridir. Məhz bu halların təkrar baş verməməsinə görə məhkum azadlığa buraxılmazdan əvvəl onun yeni həyata uyğunlaşması üçün psixoloji yardım və sosial işlər aparılmalı, yeni bilik və bacarıqlara sahib olması üçün isə maarifləndirə, müəyyən peşəyə yiyələnmə işləri görülməlidir. Hətta bəzi ölkə qanunlarında olduğu kimi azadlığa buraxmazdan 6 ay öncə başlayaraq cəmiyyətə daxil olması üçün məhkumu bacarıq və qabiliyyətlərinə uyğun işlə təmin edərək gündüzlər işləmək üçün azadlığa buraxılmalı, axşamlar isə təkrar cəzasını çəkmək üçün həbsxanaya qayıtmalıdır. Belə bir işin təşkil olunması, məhkumun yeni dəyişən həyata uyğunlaşmasına, münasibətlərin qurulmasına, cəmiyyət içərisində müəyyən mövqe qazanmasına və özünü dəyərli, lazımlı hiss etməsinə şəraitin yaradır. Məhz bu hallarda məhkum yeni dəyişilmiş həyata daha tez və düzgün uyğunlaşar. Lakin belə sosial işlərin təşkili ilə yanaşı ictimaiyyətlə də maarifləndirə işlərinin aparılması şərtdir.

"Resosializasiya" termini sosiologiya, pedaqogika, psixologiya, həmçinin hüquq sahəsində geniş istifadə olunaraq, özündə çox komponentli məzmunu əks etdirir. Geniş izahlı sosioloji lüğətə görə resosializasiya termini ilk olaraq, fərdin bütün həyatı boyu istiqamət, məqsəd, norma və həyat dəyərlərinin dəyişməsi ilə əlaqədar baş verən sosiallaşma başa düşülür; ikincisi, deviant fərdin kəskin münaqişələr olmadan həyata adaptasiyası prosesi; üçüncüsü, prinsipial olaraq başqa sosial şəraitə keçidlə əlaqədar və ya əvvəlki, düzgün mənimsənilməmiş, köhnəlmiş dəyərlərin yeni dəyər, rol, vərdişlərlə əvəz olunması prosesi; dördüncüsü, yeni normaların, dəyərlərin, dünyagörüşlərin və davranış modellərinin mənimsənilməsi prosesi və s. [1]

Pedaqogika resosializasiyadan bir vasitə kimi istifadə edir, belə ki, insana, əvvəl mənimsənilənləri əvəz etmək üçün yeni həyat dəyərləri aşılanır. Bu prosesin istiqaməti, davranış modeli ümumiyyətlə qəbul edilmiş qaydalardan əhəmiyyətli dərəcədə fərqlənən insanlara münasibətdə həyata keçirilir. Bu metodun əsas məqsədi itirilmiş vəziyyəti bərpa etmək və mənfi münasibətləri dəyişdirməkdir.

Rusiya sosioloq, psixoloq, antropoloq, filosofu İ.S. Konun fikrincə, "resosializasiya" termini sosial qüvvələrin insana şüursuz və spontan təsirini ifadə edən "sosiallaşma" terminindən irəli gəlir [2]. Resosializasiya sosiallaşmanın növlərindən biridir və yeni dəyərlərin, normaların, rolların və davranış qaydalarının mənimsənilməsi prosesidir. Sosiallaşmanın növlərinə həmçinin desosializasiya aiddir, burada köhnə dəyərlər sistemindən çıxış yolu başa düşülür, bunun bariz nümunəsi isə cinayətin törədilməsidir. Cinayət, ictimai əhəmiyyətli normaların pozulması və cinayət qanunu ilə qorunan dəyərlərə qəsddir. Cinayətin törədilməsi subyektin müəyyən dərəcədə desosial olduğunun göstəricisidir: bununla da o, cəmiyyətin təməl dəyərlərindən imtina etdiyini nümayiş etdirir.

Resosializasiya normal adaptasiyanı o zaman təmin edir ki, sosial mühit fərdin həyat şəraitini dəyişdirərək fərdin, mədəniyyətin əsas elementlərinin – simvol, dəyər, məna və normalarının yenidən mənimsənilməsi prosesinə təkan versin.

"Sosiallaşma" anlayışı cəmiyyətə inteqrasiya prosesinin əsas götürüldüyü bir çox fərqli tədbir və metoddan ibarətdir. Sosiallaşmanın vəzifəsi hər bir insana cəmiyyət tərəfindən təsdiqlənmiş dəyər və davranış normalarını aşılamaqdır.

Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərin resosializasiya problemləri haqqında ilk problemlərdən biri professor N.A. Struçkov tərəfindən yazılmışdır. Onun fikrincə, bu prosesin konsepsiyasının məzmununa yalnız penitensiar deyil, həm də şəxsiyyətlə tərbiyə işinin postpenitensiar dövrü daxil edilməlidir [3]. Lakin, bu mövqe mübahisəli görünür, çünki azadlıqdan məhrumetmə yerlərində məhkumların resosializasiyası prosesi yalnız tərbiyə işi ilə məhdudlaşmır, həmçinin bura hüquqi tənzimləmə, təcridolma şəraitinin insanın psixi və fiziki sağlamlığına mənfi təsiri və s. bu kimi xüsusiyyətini müəyyən edir.

Azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslərin resosializasiyası cəmiyyətdə qəbul edilmiş müsbət normaların, əqidələrin, mövqelərin mənimsənilməsi və azad edildikdən sonra azadlığa uyğunlaşmaq üçün cəza çəkmə dövründə sosial-faydalı vərdişlərin əldə edilməsi prosesini əhatə edir.

Beləliklə, resosializasiya antisosial davranışı olan bir insanı düzəltməyə yönəlmiş mənəvi və sosial xarakterli tədbirlər silsiləsidir. Psixoterapevtik korreksiya resosializasiya prosesində əhəmiyyətli bir komponentdir. V.İ. Zubkov qeyd edir ki, resosializasiya üçün zəruri şərt məhkumun islah edilməsidir və bu əksinə deyil [4].

Bir çox hallarda, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərin resosializasiyası üçün neqativ sosial mühitin dəyişməsinin qeyri-mümkünlüyü, habelə azadlıqdan məhrum etmə növündə cəzaya xas olan bir sıra amillər, xüsusilə cəmiyyətdən məcburi təcrid olunma, fərdlərin eyni cins qruplara daxil edilməsi, həyat fəaliyyətinin bütün sahələrində davranışın sərt formada tənzimlənməsi çətinləşir.

Penitensiar sistemin inkişaf konsepsiyasında təcridetmənin mənfi təsirlərini minimuma endirmək üçün bəzi məsələlərə yenidən baxılmalı və dövrün tələblərinə uyğun aşağıdakı formada işlənməsi məqsədəmüvafiqdir:

– tərbiyə işinin aparılmasının yeni formalarının işlənib hazırlanması, məhkumların yeni cəza çəkilmə şəraitində maarifləndirmə prosesinin və əmək məşğulluğunun təşkili;

– məhkumların sosiallaşmasına yönəldilmiş cinayət və penitensiar siyasətin təkmilləşdirilməsi (cəzaların icrasının təşkili);

– islah müəssisələrində, o cümlədən tərbiyə koloniyalarında birgə yaşayış sahəsində saxlanılan məhkumların sayının tədricən azaldılması üçün şəraitin yaradılması;

– törədilmiş cinayətin ağırlığı və məhkumun kriminoloji xüsusiyyətləri nəzərə alınmaqla məhkumların ayrıca saxlanmasının həyata keçirilməsi;

– sənaye və ölkənin regionları üzrə işçilərin peşələrinə tələbat proqnozunu nəzərə almaqla, bütün təhsil formalarını həyata keçirən yeni peşə təhsili təşkilatlarının yaradılması;

– yetkinlik yaşına çatmayan məhkumların yaş xüsusiyyətlərinə və fərdi ehtiyaclarına cavab verən əmək vərdişlərinin və bacarıqlarının inkişafı modellərinin və proqramlarının tətbiqi;

– azadlığa hazırlıq və daha da sosiallaşmaq məqsədilə məhkumların islah müəssisələrinə daxil olduqları andan onlarla fərdi sosial iş mexanizminin işlənib hazırlanması;

– məhkumlara qarşı tərbiyə işinin gücləndirilməsinə, onların əmək fəaliyyətinə cəlb edilməsinə, peşə əldə edilməsinə və ya ixtisaslaşmasına xüsusi diqqət;

– islah prosesinə icra hakimiyyəti orqanlarının, habelə vətəndaş cəmiyyəti institutlarının nümayəndələrini cəlb etməklə bütün islah müəssisələrində çalışan əməkdaşların funksional qarşılıqlı fəaliyyəti əsasında məhkumlarla sosial, psixoloji və maarifləndirici işin təşkili;

– hər bir məhkuma sosial-demoqrafik, cinayət-hüquqi və fərdi-psixoloji xarakteristikası nəzərə alınmaqla ona ünvanlı sosial, psixoloji və pedaqoji yardım göstərilməsini təmin edən yeni fərdi iş formalarının axtarışı və tətbiqi;

– məhkumlara qarşı mediasiya metodlarının tətbiqi. Mediasiya – mübahisələrin alternativ həlli yollarından biridir. Mediasiya iki və daha çox şəxsin arasında yaranmış mübahisənin danışıqlar yolu ilə üçüncü neytral bir şəxsin (mediatorun) köməkliyi ilə həllinə çalışılan könüllü bir

prosesdir. 29 mart 2019-cu il tarixdə "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 3 aprel 2019-cu il tarixli Fərmanına və "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvafiq işçi qrupu formalaşdırılıb, Mediasiya Şurasının nizamnaməsi razılaşdırılıb və 12.02.2020-ci il tarixində Mediasiya Şurası təsis olunub.) [5];

– azadlıqdan məhrumetmə yerlərində məhkum edilmiş şəxslərin islah edilməsi üçün əsas vasitələrin tətbiqi ideologiyasının dəyişdirilməsi və onu cəmiyyət həyatına hazırlamaq üçün psixoloji və pedaqoji işi gücləndirmək;

– məhkumlara islah təsirinin yeni formaları və üsullarının, məhkumlarla sosial işin təşkilati mexanizmlərinin axtarışı və istifadəsi, islahın əsas vasitəsi kimi məhkumlarla sosial, psixoloji və pedaqoji iş formalarının cəza qanunvericiliyində birləşdirilməsi;

– təhsil təşkilatlarının məcburi saxlanma yerlərində insan hüquqlarının təmin edilməsi sahəsində təhsil alanlarda peşə vərdişlərinin formalaşdırılmasına yönəlmiş cinayət-icra sisteminin reallaşdırdığı profil tədris proqramlarının işlənib hazırlanması və tətbiqi;

– məhkumların həbs rejiminin müəyyən edilmiş qaydalarının yerinə yetirilməsini təmin etmək məqsədi ilə saxlanma şəraitinin fərqləndirilməsi, faktorların öyrənilməsi sisteminin yaradılması, qanuna tabe davranışları stimullaşdıran tədbirlərin işlənib hazırlanması, habelə müəyyən edilmiş cəza çəkilmə qaydasını pozanların məsuliyyətinin gücləndirilməsi məqsədi ilə məhkumların insidentlərə səbəb olan amillərin öyrənilməsi sisteminin yaradılması;

– məhkumların cəza çəkmə şəraitinin və islah müəssisəsi növünün dəyişdirilməsinə səbəb olan qanuna tabe olan davranışa motivasiya sisteminin təkmilləşdirilməsi, şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, islah müəssisələrinin müdiriyyətinin şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsinin məhkumların davranış və şəxsi xüsusiyyətləri nəzərə alınmaqla daha yüngül cəza növü ilə əvəz edilməsi mexanizmlərinin həyata keçirilməsində iştirak qaydasının təkmilləşdirilməsi;

– məhkumların əsas peşə təhsil proqramlarının və əmək bazarında tələb olunan əsas peşə tədris proqramlarının həyata keçirilməsi çərçivəsində peşələrə yiyələnməsi, azad edildikdən sonra işə düzəlməyə imkan verən peşə vərdişlərinin təkmilləşdirilməsi;

– islah müəssisələrində məhkumların mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsinin təkmilləşdirilməsi, onların ictimai-faydalı fəaliyyət meyllərinin formalaşdırılması və inkişaf etdirilməsinə, cəmiyyətdə qəbul edilmiş qanun və davranış qaydalarına riayət edilməsinə yönəlmiş maarifləndirici tədbirlərin planlaşdırılması, təşkili və keçirilməsi;

– vətəndaş cəmiyyəti strukturları, ictimai birliklər ilə əməkdaşlıq və onların fəaliyyəti məhkumlara humanitar-tərbiyəvi təsir üçün faydalı ola bilər, ənənəvi məzhəblərə qarşılıqlı fəaliyyətin gücləndirilməsi, xüsusilə məhkumlara dini mərasimlərdə iştirak imkanlarının təmin edilməsi, ənənəvi məzhəblərlə birgə humanitar layihələrin həyata keçirilməsi;

– məhkumların asudə vaxtlarının mədəni təşkilinin formalarının genişləndirilməsi, klub və dərnək işinin təşkili, bu işə incəsənət, mədəniyyət və idman xadimlərinin, o cümlədən geniş şöhrət və müsbət nüfuza malik olan şəxslərin cəlb edilməsi, kitabxana fondlarının zənginləşdirilməsi;

– psixodiaqnostik və psixokorreksiya işinin elmi-metodiki səviyyəsinə, psixoloqun psixoterapevtik istiqamətinin işlənib hazırlanması və inkişaf etdirilməsi, psixoloqun fəaliyyətinin elmi-texniki təminatının təkmilləşdirilməsi, psixoloqun diaqnostik vasitəsinin və psixodiaqnostik işin həcminin optimallaşdırılması, innovativ texnologiyaların tətbiqi, qabaqcıl yerli və xarici iş təcrübəsinin adaptasiyası;

– məhkumların maraq və ehtiyaclarını nəzərə alaraq özfəaliyyət təşkilatlarının formalaşmasına yeni yanaşmaların hazırlanması, onların fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi;

– məhkumların əsas ümumi təhsil və ya orta təhsil almaq, orta peşə təhsili və ali təhsil almaq üçün elektron təhsil və distant təhsil texnologiyalarının tətbiqi ilə təhsil proqramlarının həyata keçirilməsi çərçivəsində qiyabi təhsil

formasında əlverişli şəraitin daha da inkişaf etdirilməsi [6];

– psixoloqun psixoterapevtik iş istiqamətinin işlənib hazırlanması və inkişaf etdirilməsi, spirtli və ya narkotik asılılığı, psixi anomaliyaları olan məhkumlara ixtisaslaşdırılmış psixoloji yardımın göstərilməsi məqsədi ilə penitensiar sistem müəssisələrində sosial-psixoloji reabilitasiya bölmələrinin yaradılması və s.

Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərin resosializasiyası uzun müddətli prosesdir. Hər bir məhkum cəza çəkdikdən sonra cəmiyyətin adi həyat şəraitinə daxil olmaq qabiliyyətini və hazırlığını formalaşdırmağa yönəlmiş psixoloji, pedaqoji, tibbi, sosial-iqtisadi, hüquqi və təşkilati tədbirlərə əsaslanan mürəkkəb kompleks sistemdən keçməlidir. Eyni zamanda, bu prosesin səmərəliliyi bir çox hallarda azadlıqda olan həyatla böyük fərqə malik olmayan cəzaların çəkilmə şərtlərindən asılıdır, çünki, məhkum normal davranışın bacarıq və vərdişlərini itirməməlidir [7].

Azadlıqdan məhrum edilmiş məhkumların resosializasiyası üçün məhkumların əsas və şəxsi hüquqlarını, onların qanuni mənafelərini, məhkumların islah edilməsinin əsas vasitələrini, o cümlədən əmək, peşə təhsili və peşə təlimini, tərbiyəvi təsirini, habelə davranışından və əməyə münasibətindən asılı olaraq cəzanın çəkilməsi dövründə saxlanma şəraitini yaxşılaşdırmaq imkanını təsbit edən müddəalar öz əksini tapmalıdır.

Məhkumlar azad edildikdən sonra cəmiyyətdə islahatı və uğurlu adaptasiyası üçün zəruri amil məhkumların resosiallaşmasının təmin edilməsi, onların əsas sosial funksiyaların mənimsənilməsi istiqamətində sosial və psixoloji işlərin, habelə tərbiyə və təhsil prosesində onlarla sosial, psixoloji və maarifləndirici işlərin inkişaf etdirilməsi nəzərə alınmalıdır.

Həmçinin, məhkumların sosialyönünün formalaşdırılması, destruktiv təzahürlərin profilaktikası, onların yenidən sosiallaşması və cəmiyyətə daha da inteqrasiyası üçün şəxsiyyətin psixoloji korreksiyasının baza proqramlarının hazırlanması da məqsədə müvafiqdir [8]. Bununla yanaşı, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi və penitensiar sistemin fəaliyyətinə nəzarətin həyata keçirilməsi çərçivəsində ictimai-humanitar layihələrin təşkil olunması məhkumların qanuna tabe olmasını və onların yenidən sosiallaşmasına əlavə stimul yaradır, xüsusilə azadlıqdan məhrumetmə yerlərindən azad edilən məhkumun taleyinin tənzimlənməsində mühüm rol oynayır.

Resosializasiya azadlıqdan məhrum etmə növündə cəza çəkmiş və ya digər cinayət-hüquqi xarakterli tədbirlərə məruz qalmış şəxslərin cəmiyyətə reinteqrasiyası məqsədi ilə cinayətlərin qarşısının alınmasında iştirak edən şəxslər və onların səlahiyyətlərinə uyğun olaraq subyektlərin həyata keçirdikləri sosial-iqtisadi, pedaqoji, hüquqi xarakterli tədbirlər kompleksidir.

Azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslərin resosializasiyası sosial adaptasiyası olmadan mümkün deyil. Çünki sosial adaptasiya azadlıqda həyata hazırlaşmaq üçün nəzərdə tutulan tədbirlər və vasitələr kompleksidir. Yəni, sosial adaptasiya resosializasiya üçün mütləq tərkib hissəsidir [9].

**Nəticə**

Beləliklə, demək olar ki, bütövlükdə cəmiyyətin təhlükəsizliyi, residiv cinayətkarlığın səviyyəsinin qarşının alınması həyata keçirilən tədbirlərin səmərəliliyindən asılıdır. Azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxslərin törətdikləri cinayətlərin təkrarlanmasının azaldılması üçün islah müəssisələrində cəza çəkərkən məhkumların sosial adaptasiyası və azadlıqdan məhrumetmə yerlərindən azad edilmiş şəxslərə postpenitensiar yardım göstərilməsi kimi məsələlər diqqətə alınaraq həll olunmalıdır.

**Problemin elmi yeniliyi:** azadlıqdan məhrum etmə yerlərində məhkumların sosial adaptasiyası prosesinin gender aspektləri öyrənilmiş və nəticədə penitensiar sistemdə cinayətkarlığın gender xüsusiyyətlərinin daha böyük ölçüdə nəzərə alınmalı olduğu müəyyən edilmişdir; azadlıqdan məhrum etmə yerlərində olan məhkumların dəyər yönümləri sisteminin təhlili aparılmış və onların cəmiyyətdən təcrid şəraitindəki sosial adaptasiya prosesində dinamikası göstərilmişdir; beynəlxalq standartlardan uzaq olan müasir penitensiar şəraitdə məhkumlar azadlıqdan məhrumetmə şəraitinə adekvat uyğunlaşa bilmirlər (mövcud şəraitin olmaması, kifayət qədər diqqət və yardımın olmaması) onların dezadaptasiyasının göstəricisidir; resosializasiya və sosial adaptasiya prosesinin düzgün qurulmaması residiv cinayətin artmasına şərait yaratdığı müəyyən olunmuşdur.

**Problemin praktik əhəmiyyəti:** azadlıqdan məhrum etmə yerlərində məhkum olunmuş şəxslərin yeni şəraitə uyğunlaşma prosesinə təsir edən subyektiv və obyektiv amillər müəyyən olunmuşdur.

**Problemin aktuallığı:** məhkum olunmuş şəxslərin müəyyən edilmiş nəzəri-metodoloji yanaşmalar nöqteyi-nəzərindən elmi təhlili aparılmış və eyni zamanda müasir cəmiyyətdə məhkumluq həyatı yaşayan şəxslərin təkrar cinayət törətməsinə səbəb resosializasiya və sosial adaptasiyanın olmaması ilə şərtləndiyi müəyyən edilmişdir.

**Ədəbiyyat :**


1. Большой толковый социологический словарь терминов. http:/www.onlineedics.ru/slovar/soc.html (дата обращения: 23.04.2018)
2. Кон, И. С. Ребенок и общество. – М.: Наука, – 1988. – 270 с. (с. 134)
3. Наташев, А. Е., Стручков Н. А. Основы теории исправительно-трудового права. – М.: Юрид. лит., – 1967. – 190 с. (с. 105)
4. Зубкова, В. И. Цель исправления как путь ресоциализации осужденного // Ресоциализация осужденных в условиях развития гражданского общества: сборник материалов Междунар. научно-практич. конф. (11-12 декабря 2014). Киров: ФКОУ ДПО Кировский ИПКР ФСИН России, – 2014. – 275 с. (с. 28-30)
5. Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanun – http://www.e-qanun.az/framework/41828
6. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun qərarı – http://www.e-qanun.az/framework/16789
7. Каирбаева, Л. К. Восстановительное правосудие и ресоциализация осужденных: автореф. дис. … д-ра философии. – Астана, – 2010. – 32 с.
8. Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları – http://www.e-qanun.az/framework/10994
9. Cəzaçəkmə müəssisələrində əməyin təşkili və cəzasına başa vurmuş şəxslərin əmək bazarına çıxışı – http://labourrights-az.org/wp-content/uploads/2014/02/


**E-mail:** xalida-83@rambler.ru
**Rəyçi:** *fəls.elm.dok., prof.* **Q. N. Vəliyev**
**Redaksiyaya daxil olub:** 16.04.2022.